# "İNSAN-HƏYAT FƏALİYYƏTİNİN TƏHLÜKƏSİZLİYİ-MƏDƏNİYYƏT" SİSTEMİ

**N.T. Nağıyev, S.T. Əhmədova**

Milli Aviasiya Akademiyası

*Məqalədə "Həyat fəaliyyətinin təhlükəsizliyi" fənninin tədris edilməsində beynəlxalq təcrübə və dövlətlərin təhsil proqramları araşdırılmışdır. "Həyat fəaliyyətinin təhlükəsizliyi" fənninə yeni formatda yanaşma və cəmiyyətin müasir inkişaf mərhələsində ən vacib istiqamətlərdən biri olduğu göstərilmişdir. Həyat fəaliyyətinin təhlükəsizliyinin təminatı sahəsində beynəlxalq-hüquqi standartların beynəlxalq təhsil təcrübəsinə uyğunlaşdırılması araşdırılmışdır. Bir çox tədqiqatçıların elmi fəaliyyət dövründə həyat fəaliyyətinin təhlükəsizliyi haqqında fikirləri açıqlanmışdır.*

*Açar sözlər: İnsan, ətraf mühit, cəmiyyət, mədəniyyət, təhlükəsizlik, keyfiyyət, bacarıq, təcrübə.*

"İnsan-ətraf mühit-cəmiyyət" bir–biri ilə sıx qarşılıqlı əlaqədə olan bir sistemdir. Təhlükəsizliyin təmin olunmasında ilkin şərtlərdən biri də insanın şəxsi keyfiyyətləridir. İnsanın şəxsi keyfiyyətləri (cəsarət, məsuliyyət, inam, iradi güc, qətiyyətlilik, intizamlılıq, işgüzarlıq, təşəbbüskarlıq və s.) ailədə aldığı tərbiyədən, qazandığı təhsilin səviyyəsindən, yaşam şəraitindən, sağlamlığından, cəmiyyətdə olan fəaliyyətindən asılıdır. Hər bir şəxs fərqli bacarığa, dünya görüşünə, biliyə malik olduğu kimi, insanın fərdi təhlükəsiz davranış xüsusiyyətləri də fərqlidir. Şəxs təhlükəli hadisələr zamanı həyatın əsas hissəsi olan sağlamlığını, eləcə də ətraf mühiti təhlükələrdən qorumağı və ya baş verən hadisələrin nəticəsini minimuma endirmə bacarığına malik olmalıdır. Həyat fəaliyyətində insan hər an təhlükə ilə üz-üzə gələ bilər. Baş verən hadisələr nəticəsində zədələr, ziyan və zərərlərin qarşısını almaq demək olar ki, mümkün deyil. Ümumiyyətlə, insan həyatının və fəaliyyətinin bütün dövrlərində (ana bətnində olarkən, bağçada, evdə, təhsildə, hərbi xidmətdə, işdə, istirahətdə, yolda, nəqliyyatda və s.) qazandığı, onu xarakterizə edən keyfiyyətlərdən biri təhlükəsiz davranışa malik mədəni varlıqdır. Bu isə öz növbəsində ölkəmizdə və ümumillikdə dünya ictimaiyyəti üçün vacib bir şərtdir.

Məqalədə məqsəd, aviasiya təhlükəsizliyi üzrə gələcək strategiyanı müəyyənləşdirən qlobal plan dövlətlərin, istehsalat sahələrinin, digər maraqlı tərəflərin və Beynəlxalq Mülki Aviasiya Təşkilatının məqsədi kimi, bütün dünyada avisiya təhlükəsizliyinin təmin olunması səviyyəsinin yüksəldilməsi və beş əsas prioritet məsələdən biri olan təhlükəsizlik mədəniyyətinin və insan potensialının inkişaf etdirilməsi məsələsinin həllinə nail olmağı təmin etməkdir.

Həyat Fəaliyyətinin Təhlükəsizliyi mədəniyyəti anlayışının Həyat Fəaliyyətinin Təhlükəsizliyi Konsepsiyasına daxil edilməsinin başlıca səbəbi 1986-ci ildə Beynəlxalq Atom Enerji Agentliyi tərəfindən Çernobil Nüvə Stansiyasında baş verən qəza olmuşdur. Hadisənin səbəbləri araşdırılan zaman və nəticələri təhlil edilərkən, konsepsiyaya həyat fəaliyyətinin təhlükəsizliyinin mədəniyyəti anlayışını daxil etdilər. Məhz bu anlayışın konsepsiyaya daxil edilməsindən sonra Rusiya və bir çox MDB ölkələrinin ali təhsil sahələrində "Həyat fəaliyyətinin təhlükəsizliyi" fənninin tədrisinə başlanıldı. Rusiya Federasiyasının Təhsil haqqında qanununun 48-ci maddəsində yazılır ki, tədris olunan fənnlə bağlı pedoqoji fəaliyyətlə məşğul olan məsul şəxslər tələbələrə əmək fəaliyyətində, sağlam və təhlükəsiz həyat tərzinin formalaşdırılmasında həyat fəaliyyəti mədəniyyətinin hərtərəfli çatdırılmasını nəzərə alsınlar [1].

Həyat fəaliyyətinin təhlükəsizlik konsepsiyasını şərh edərkən mədəni bir cəmiyyətin formalaşması, həyat təhlükəsizliyinin ümumi fəlsəfəsini əhatə edən bir elm sahəsi başa düşülür. Peşəkar həyat səviyyəsini xarakterizə edən "təhlükəsiz həyat mədəniyyəti" insanın cəmiyyətdə formalaşması üçün təkcə praktiki fəaliyyətlə deyil, həmçinin şəxsin və cəmiyyətin təhlükəsizlik məsələlərinin təmin edilməsində nəzəri biliklərin olması da vacib məsələdir. Həyatın təhlükəsizliyi mədəniyyətinin mahiyyəti ondan ibarətdir ki, insan fəaliyyətinin bütün sahələrində istər fərdi, istərsə də, cəmiyyət daxilində bəşəriyyətin təhlükəsiz inkişafının əsasını təşkil etsin [1].

Bir çox tədqiqatçılar elmi fəaliyyət dövründə təhlükəsiz həyat mədəniyyəti haqqında öz məqalələrində elmi araşdırmalar aparmışlar. Bunlara misal olaraq psixologiya elmlər doktoru E.E.

Malkova “Həyat fəaliyyətinin təhlükəsizlik mədəniyyəti”- (2011-ci il), professor İ.V. Tolmachyova “Ali təhsil müəssisələrində həyat fəaliyyətinin təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması”- (2015-ci il), professor S.V.Vasileva “Pedoqoji fəaliyyətlə məşğul olan insanların təhlükəsizlik mədəniyyəti və motivləri”-(2014-cü il) mövzüsünda araşdırmalar aparmışlar [2,3].

Bu sahədə kifayət qədər aparılan araşdırmalar təsdiq edir ki, “Həyat fəaliyyətinin təhlükəsizliyi” fənni şəxsin formalaşmasında kompleks yanaşma tələb edən bir elm sahəsidir. Həyat fəaliyyətinin təhlükəsizliyinin təmini insan mədəniyyətinin bir hissəsidir. Həyat fəaliyyətinin təhlükəsizliyi fənninin fəlsəfə, etika, estetika, siyasət, hüquq, əməyin mühafizəsi, gigiyena, tibb elmləri, psixologiya, fiziologiya, erqonomika və digər sahələrlə sıx əlaqəsi vardır. İnsanların təhlükəsizliyi mədəniyyətinin inkişaf etdirilməsinin ən effektiv yollarını tapmaq üçün həyat təhlükəsizliyi və onun əsas elementlərini müəyyən etmək vacibdir.




Şək.1 Həyat fəaliyyətinin təhlükəsizliyinin strukturu

Həyat fəaliyyətinin təhlükəsizliyinin struktur komponentləri və onların qarşılıqlı əlaqələrinin vəhdəti insanın həyat təhlükəsizliyi mədəniyyətinin formalaşmasında ən təsirli üsuldur. Beləliklə, bilik və bacarıqların səviyyəsinin yüksəldilməsi, real şəraitə uyğun fəaliyyət təcrübəsinə əsaslanaraq insanın şəxsi keyfiyyətlərini inkişaf etdirmək həyat fəaliyyətinin təhlükəsizliyi mədəniyyətinin əsas dəyərlərindəndir. Həyat fəaliyyətinin təhlükəsizliyi mədəniyyətinin formalaşdırılmasında şəxsin bilik, bacarıq, müsbət şəxsi keyfiyyətlərinin olması vacib şərtdir. Ətraf mühitə və cəmiyyətə qarşı təhlükəsiz davranışa malik şəxsin formalaşması üçün həyat fəaliyyəti təhlükəsizliyinin mədəniyyəti strukturunun yuxarıda (şək.1) göstərilən keyfiyyətlərinin bir-biri ilə qarşılıqlı vəhdətdə olması vacib bir məsələdir [4].

Rusiya Federasiyasının Təhsil Nazirliyi tərəfindən 2011-2015-ci illər üçün “Təhsilin inkişaf perspektivlərinin artırılması” proqramı qəbul edilmişdir. Həmin proqramda tələbələrin psixoloji, mənəvi, tibbi, sosial inkişafını təmin etməkdən ötrü “təhlükəsiz həyat mədəniyyəti” modeli haqqında yazılmışdır. Həmin proqramda göstərilir ki, cəmiyyətdə qanun pozğunluqlarının profilaktikası, xəsarətlərin, müxtəlif səbəbdən baş verən fəlakətlər zamanı təlafatların sayının minimuma endirilməsi, peşə xəstəliklərinin azaldılması yolunda ali təhsil müəssisəsi tərəfindən tələbələrdə təhlükəsizlik mədəniyyətinin formalaşdırılması vacibdir. Proqramda, həmçinin təhlükəsizlik mədəniyyətinin inkişaf etdirilməsində aşağıdakı prinsiplər göstərilmişdir:

- təhlükəsizlik qaydalarının öyrənilməsi;
- əməyin mühafizəsinə dair biliklərin öyrənilməsi;
- ekstremal şəraitlərdə sağqalma bacarıqlarının öyrənilməsi;
- ilk tibbi yardımla bağlı biliklərin çatdırılması;
- təhlükəsiz davranışa malik olan şəxsin xüsusiyyətlərinin aşılanması.

Sonda qeyd edilir ki, bu sahədə dövlət siyasətinin formalaşdırılması və əhalinin mühafizəsi sahəsində aidiyyəti orqan (Fövqəladə Hallar Nazirliyi) tərəfindən ali təhsil müəssisələrində tələbələrin bilik səviyyəsini müəyyən etmək üçün vaxtaşırı nəzarət yoxlamaları həyata keçirilir. Rusiya Federasiyasında “Həyat Fəaliyyətinin Təhlükəsizliyi” fənninin ali tədris proqramına aşağıdakı mövzülar daxil edilir [5]:

a) “Təhlükəsizlik mədəniyyəti” anlayışı və onun mahiyyəti;
b) Ekstremal şəraitdə insanın davranış qaydaları;
c) Təbii xarakterli böhran şəraitində insanların mühafizəsi;
d) Texnogen xarakterli böhran şəraitində insanların mühafizəsi;

e) Kriminal xarakterli böhran şəraitində davranış qaydaları;
f) Yanğın təhlükəsizliyi;
g) Əməyin mühafizəsi qaydaları. "İnsan-maşın-ətraf mühit" sistemi;
h) Ekstremal vəziyyətlərdə insanın psixoloji xüsusiyyətləri;
i) Təhlükəsiz davranışa malik şəxsin xüsusiyyətləri;
j) Müəyyən ərazidə səmtləşmə üsulları;
k) Müxtəlif relyef şəraitində hərəkətetmə qaydaları;
l) Yaşayış mühitində təhlükəsizlik qaydaları;
m) Cəmiyyətdə etiket qaydaları;
n) Tibbi yardımın üsulları.

Qazaxıstan Respublikasında "Həyat Fəaliyyətinin təhlükəsizliyi" fənni üzrə tədris proqramı aşağıdakı mövzulardan ibarətdir:

a) İnsanın sağlamlığının mühafizə olunmasında əsas anlayışlar və normativ sənədlər;
b) Təbii və texnogen xarakterli hadisələr və onlardan mühafizə;
c) İlk tibbi yardımın göstərilməsi qaydaları;
d) Nəqliyyat qəzaları və onlardan mühafizə yolları;
e) Ətraf mühitə vurulan ziyanlar və onlardan mühafizə yolları;
f) Yanğın təhlükəsizliyi və profilaktik tədbirlər;
g) Psixoloji təsir prosesində şəxsiyyət amilinin rolu;
h) Istehsalat mühitində təhlükəsizlik qaydaları.

Almaniya Demokratik Respublikasının təhsil və iş mühitində aşağıda göstərilən struktur çərçivəsində tədris həyata keçirilir. Adı çəkilən hər bir bölmə ayrı-ayrı fənn kimi tədris olunur. Ümumilikdə, həyat fəaliyyətini təmin edən sahələr kimi qiymətləndirilir.




Şək. 3 İnsan keyfiyyətinin və dəyərlərinin formalaşdırılmasının strukturu

**Korporativ mədəniyyət** - bu termin ilk dəfə XIX əsrdə Almaniya hərbi qüvvələrinin idarə etmə sistemində alman generalı Marşal Helmut Karl Bernhard Moltke tərəfindən hazırlanmış və tətbiq olunmuşdur. Həmin dövrdə zabitlər arasında münasibətlər yalnız nizamnamələr, məhkəmələrdə verilən qərarlar əsasında tənzimlənirdi. Korporativ mədəniyyət adətən bir təşkilat, bir komanda üzvləri tərəfindən ümumi qəbul edilmiş nizam-intizam qaydalarıdır. Müasir menecerlər korporativ mədəniyyəti şöbə və idarələrdə işçilərin təşəbbüsünü artırmaq və əməkdaşlar arasında sağlam münasibəti formalaşdırmaqdan ötrü güclü strateji vasitə hesab edirlər. Korporativ mədəniyyət hər bir idarənin, təşkilatın özfəaliyyət mədəniyyətinin seçilməsi və ona uyğun fəaliyyət göstərməsi deməkdir [6,7].

**Təşkilat mədəniyyəti** - ailədə, idarədə, təhsil müəssisəsində və s. olan şəxslərin dünya-görünüşü, dəyərlər və ənənələrinə uyğun ümumi bir yanaşma seçilməsidir. Məşhur menecer

S.P. Robbins tərəfindən təşkilatı mədəniyyətin xüsusiyyətləri müəyyənləşdirilmişdir. Onlar aşağıdakılardır:

- Şəxsi keyfiyyət;
- Ünsiyyətçilik;
- İdarəetmə xidmətindən asılı olmayaraq təmənnasız yardım göstərmək;
- İşçilərin öz fikirlərini açıq şəkildə ifadəetmə bacarığı.

**İdarəetmə (menecer) keyfiyyəti** - ictimai rifahı artırmaq, idarə və müəssisələrdə, təhsildə, cəmiyyətdə təhlükəsiz inkişafa nail olmaq üçün insanın, cəmiyyətin və dövlətin inkişafının idarə edilməsinə istiqamətlənmiş bir elm sahəsidir.

İnsan fəaliyyətinin hər bir sahəsində həyat keyfiyyətini yüksəltməkdən ötrü şəxsiyyətin inkişafını, etik və estetik mədəniyyətini, cəmiyyət arasında münasibətin tam formalaşdırılması sahəsində hələ 60-70-ci illərdə alman tədqiqatçıları həyat fəaliyyətinin təhlükəsizliyi mədəniyyətinin inkişafı üçün elmi araşdırmalar aparmışlar.

**Strateji idarəetmə** - həyat fəaliyyətinin təhlükəsizliyi mədəniyyətinin bir hissəsi kimi həm dövlətin, həm də insan fəaliyyətinin daha səmərəli yollarını və texnologiyalarını özündə əks etdirən bir sahədir.

**Təhlükəsizlik mədəniyyəti** - müəssisə daxilində insanların sağlamlığının təmin edilməsi və təhlükəsizlik fəaliyyəti haqqında düşüncələrini öz əməllərində reallaşdırılması cəhdləridir.

Ölkəmizdə ali təhsil pilləsində "Həyat fəaliyyətinin təhlükəsizliyi" fənni hər bir ali təhsil müəssisəsində fərqli keçirilir. Fənn proqramlarına misal olaraq, Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş "Həyat Fəaliyyətinin Təhlükəsizliyi, Mülki Müdafiə, Tibbi Biliklərin Əsasları" kursu üzrə ali məktəblərin bakalavr pilləsi üçün proqram-2010. Müəlliflər-H.O. Ocaqov, N.T. Nağıyev, Azərbaycan Respublikasnın Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş "Nəqliyyatda Həyat Fəaliyyətinin Təhlükəsizliyi" magistr hazırlığı üçün proqram- 2012. Müəllif-N.T.Nağıyev, "Həyat Fəaliyyətinin Təhlükəsizliyi" ali təhsil səviyyəsində hazırlanmış proqram-2015. Müəlliflər- N.T. Nağıyev, Ş.P. Nuriyeva, N.N. Mursakulov göstərə bilərik. Fənn proqramlarını təhlil edərkən müasir mövzülardan olan təhlükəsizlik mədəniyyəti anlayışına rast gəlinmir. Bu baxımdan "Həyat fəaliyyətinin təhlükəsizliyi" fənninin hazırlığı üzrə tədris proqramlarının müqayisəli təhlili əsasında aşağıdakı mövzülar üzrə tədris proqramı təklif olunur [8,9,10]:

a) Həyat fəaliyyətinin təhlükəsizlik konsepsiyası."Təhlükəsizlik mədəniyyəti" anlayışı və onun mahiyyəti;
b) "İnsan-cəmiyyət-ətraf mühit" sistemi və sistemə təsir edən əsas faktorlar;
c) Şəxsin təhlükəsizliyinin nəzəri modeli və davranış növləri;
d) Təbii xarakterli fövqəladə hallar zamanı davranış qaydaları;
e) Texnogen xarakterli fövqəladə hallar zamanı davranış qaydaları;
f) Kriminal xarakterli fövqəladə hallar zamanı davranış qaydaları;
g) İstehsalat mühitində əməyin mühafizəsi. "İnsan-maşın-ətraf mühit" sistemi;
h) Yaşayış mühitində həyat fəaliyyətinin mühafizəsi;
i) İnsanın təbiətdə avtonom şəraitdə yaşamasının psixoloji aspektləri;
j) Müəyyən relyef şəraitlərində hərəkət etmənin xüsusiyyətləri;
k) Ərazidə səmti müəyyənetmənin növləri;
l) Yanğın zamanı təhlükəsizlik qaydaları. Yanğın zamanı görüləcək tədbirlər;
m) Vətəndaş cəmiyyətində etiket qaydaları. Etiket və nəzakət qaydaları;
n) İlk tibbi yardımın göstərilməsini tələb edən vəziyyətlər və ilk tibbi yardımın göstərilməsi üsulları.

Mövzülar üzrə tədris proqramı beynəlxalq təcrübə və dövlətlərin təhsil proqramlarına uyğun olaraq hazırlanmışdır.

**Nəticə**

Tədqiqatın nəticəsində "Həyat fəaliyyətinin təhlükəsizliyi" fənni üzrə tədris proqramı tərtib edilmişdir.Tərtib edilmiş modullar üzrə tədris proqramının əsas xüsusiyyəti "İnsan-cəmiyyət-ətraf mühit" sistemi və sistemə təsir edən əsas faktorlar daha geniş əhatə edilmişdir.Araşdırdığımız digər tədris proqramlarından fərqli olaraq tərtib etdiyimiz proqramda "Təhlükəsizlik mədəniyyəti" anlayışı və onun mahiyyəti qeyd olunmuşdur.

## ƏDƏBİYYAT


1. Федеральный закон «Об образовании в Российской Федерации».– М.: Проспект, 2013. – 160 с.
2. Кудрин А.А. Формирование профессионально-педагогической культуры у будущих специалистов безопасности жизнедеятельности в педагогическом вузе. 2015.
3. Викулова А.В., Тимушкиной Н.В. Культура безопасности жизнедеятельности. Материалы Всероссийской научно-практической конференции с международным участием. 2012.
4. Есипова А.А., Ребко Э. М. Основные структурные компоненты культуры безопасности жизнедеятельности // Молодой ученый. — 2014. — №18.1. — С. 36-38. — URL https://moluch.ru/archive/77/13209/ (дата обращения: 22.10.2018).
5. Концепция безопасности образовательного пространства [Электронный ресурс]. - Режим доступа: http://www.websib.ru/noos/bou/conception.php. Дата обращения 12.12.2011.
6. Петров С.В., Обеспечение безопасности образовательного учреждения [Текст]: Учебное пособие / С.В. Петров, П.А. Кисляков. - М.: Из-во «Русский журнал», 2010. - 260 с.
7. Есипова А.А., Ребко Э.М. Культура безопасности жизнедеятельности как интегральное качество личности [Текст] / А. А. Есипова, Э.М. Ребко.
8. "Həyat Fəaliyyətinin Təhlükəsizliyi, Mülki Müdafiə, Tibbi Biliklərin Əsasları" kursu üzrə ali məktəblərin bakalavr pilləsi üçün proqram-2010. Müəlliflər- H.O. Ocaqov, N.T. Nağıyev.
9. "Nəqliyyatda Həyat Fəaliyyətinin Təhlükəsizliyi" magistr hazırlığı üçün proqram-2012. Müəllif-N.T. Nağıyev.
10. "Həyat Fəaliyyətinin Təhlükəsizliyi" ali təhsil səviyyəsində hazırlanmış proqram-2015. Müəlliflər- N.T. Nağıyev, Ş.P. Nuriyeva, N.N. Mursakulov.


## *СИСТЕМА "ЧЕЛОВЕК - БЕЗОПАСНОСТЬ ЖИЗНЕДЕЯТЕЛЬНОСТИ – КУЛЬТУРА"*

***Н.Т. Нагиев, С.Т. Ахмедова***

*В статье рассматриваются образовательные практики международного опыта стран в преподавании предмета безопасности жизнедеятельности. Безопасность жизни - это новый подход и один из важнейших аспектов современного развития общества. Изучена адаптация международно-правовых стандартов к международному обра-зовательному опыту в области безопасности жизнедеятельности. Многие образовательные практики были исследованы относительно безопасности жизнедеятельности в ходе научной деятельности.*

***Ключевые слова:*** *Человек, окружающая среда, общество, культура, безопасность, качество, умение, практика.*

## *"HUMAN - LIFE SAFETY – CULTURAL" SYSTEM*

***N.T. Nagıev, S.T. Ahmedova***

*The article examines the educational practices of international experience and states in teaching the subject of life safety. Life safety is a new approach and one of the most important aspects of society's modern development. Adaptation of international legal standards to international education experience in the field of life security has been studied. Many researchers have been investigated about the safety of life activity during scientific activity.*

***Key words:*** *Human, environment, society, culture, security, quality, skill, experience.*